# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Satınalma komissiyasının bildirişi

2025-ci il ərzində Dövlət Statistika Komitəsinin inzibati binasının fasadının və şüşələrinin yuyulması xidmətlərinin satın alınması məqsədilə 17.02.2025-ci il tarixdə elan olunmuş kotirovka sorğusu prosedurunun nəticələrinə dair yekun protokol Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin 16.04.2025-ci il tarixli AİBNDA/SQ-1582/2025 nömrəli qərarı ilə təsdiq edildikdən sonra “BLUEPRINT CONSTRUCTION” Məhdud Məsuliyyətli Cəmiyyətinə təklifin akseptinə dair bildiriş göndərilməsinə və 5 (beş) iş günü müddətində satınalma müqaviləsinin imzalanıb qaytarılması tələb olunmasına baxmayaraq, müvafiq müqavilə Təchizatçı tərəfindən imzalanmaqdan imtina edilmişdir. Bununla əlaqədar “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsi rəhbər tutularaq “BLUEPRINT CONSTRUCTION” Məhdud Məsuliyyətli Cəmiyyətinin etibarsız təchizatçılar reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciət edilmişdir.

Satınalma komissiyası